Azərbaycan Milli Elmlər Akademiyası
Mərkəzi Nəbatat Bağının əsərləri, 2018, XVI cild, səh.203-206
UOT: 635.9

# ABŞERON ŞƏRAİTİNDƏ ADİ LAVANDANIN (*LAVANDULA OFFİCINALIS* CHAIX.) BİOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİ, İNTRODUKSİYASI VƏ LANDŞAFT MEMARLIĞINDA TƏTBİQİ

**Mustafayeva Z.T.**
AMEA Dendrologiya İnstitutu, AZ0144, Bakı, Mərdəkan qəs.S.Yesenin küç.89
bagirli_afaq@mail.ru

*Məqalədə adi lavandanın (Lavandula officinalis Chaix.) introduksiya, biomorfoloji xüsusiyyətləri, becərilmə tarixi, fenoloji inkişaf fazalarının öyrənilməsi və yay-payız fəslində mütəmadi çıçəkləməsinə görə, həmişəyaşıl kol bitkisi kimi park və bağların yaşıllaşdırılmasında geniş istifadəsi haqqında məlumat verilmişdir.*
**Açar sözlər:** *lavanda, efir yağı, introduksiya, landşaft, ətriyyat*

## Giriş

Rusiyada XVIII əsrin I yarısında lavanda becərilməyə başlamışdır. Ilk dəfə olaraq 1752-ci ildə Həştərxanda lavanda yağı almaq üçün lavandanı becərməyə başlamışdılar. Lavandanın Rusiyanın başqa şəhərlərində becərilməsinin müsbət cəhətlərini nəzərə alıb 1812-ci ildə Nikitin Dövlət Botanika Bağında lavandanı becərməyə başladılar [3] .
Adi lavanda (*Lavandula officinalis* Chaix) lavanda cinsinə, Dodaqçiçəklilər fəsiləsinə (*Labiatae*) daxildir. Lavanda (*Lavandula*) cinsinin 30-a qədər növü məlumdur. Lavanda yabanı halda Aralıq dənizi sahili ölkələrində yayılmışdır. Bunların içərisində qiymətli efir yağlı bitki kimi daha məhşur olanı Adi lavandadır (*Lavandula officinalis* Chaix). Bu növ yabanı halda Portuqaliya, İspaniya, Cənubi Fransa, İtaliya, Siciliya, Əlcəzair, Türkiyə, Şimali Amerika, Yunanıstan, Hindistanın dağlıq rayonlarında təsadüf edilir [3] .


Şək.1 *Lavandula officinalis* Chaix.

Adi lavanda (*Lavandula officinalis* Chaix) çoxillik yarımkol bitkidir. Kökləri kollaşmışdır (oduncaqlaşmış, budaqlanmış), sıx saçaqlı, torpaqda 4 m-dən çox dərinə gedir. Torpaqüstü hissənin hündürlüyü 60-80 sm-dən çoxdur, sferik formada çətir əmələ gətirən çoxsaylı budaqlardan təşkil olunmuşdur. Bitkinin aşağı hissəsindəki budaqları otşəkillidir. Bitkinin çoxillik (köhnə) budaqları çılpaq, üzərindəki qonur qabıq lövhə şəklində qopuq, cavan budaqların üzəri boz tükcüklə örtülmüşdür. Yarpaqlar üzbəüz, oturaq, xətşəkilli və ya lansetşəkilli, kənarları tamdır, xaricə doğru əyilmiş, boz tükcüklərlə örtülmüşdür. Yan budaqlanma kök boğazından başlayır. Aşağı budaqları yerə sərilir [1]. Hər il yazda budaqların təpəsindən çoxlu çiçək zoğları inkişaf edir. Bir kolda 300-1000-ə qədər çiçək zoğları ola bilər. Çiçəkləri çarpaz tozlanır. Çiçəkləri ikicinsli, budaqların ucunda sünbül çiçək qrupunda yığılmışdır. Kasacığı boruşəkilli, şişman, beşdişlidir. Çiçək tacı-mavi, açıq göy, bəzən ağdır. Erkəkciyi dörd, dişiciyi bir, yumurtalığı üst, dördyuvalıdır. Meyvəsi quru, 4 ədəd kiçik, uzunsov, oval, hamar, parlaq, tünd fındıqcıqlardan ibarətdir. 1 q toxumda 1000-ə qədər toxum olur. Becərildiyi yerdən asılı olaraq iyundan avqusta qədər çiçəkləyir. Efir yağı çiçəkdə yığılır.

Lavanda (*Lavandula officinalis* Chaix.) qədim aromatik bitkilərdən olub, efir yağının, həmçinin quru halda çiçəklərinin istifadəsi üçün becərilir. Lavandadan alınan efir yağı bakterisid xassəyə malikdir, ətriyyat, kosmetika sənayesində geniş istifadə olunur [2]. *Lavandula officinalis* Chaix.

yağı odekalon, ətirli gigiyenik suların, pastaların, ekstraktların, müxtəlif sort sabunların, kosmetik vasitələrin hazırlanmasında istifadə olunur. Ispaniyada lavanda yağı saxsı istehsalında, lak və boya zavodlarında, baytarlıqda istifadə olunur.

*Lavandula officinalis* Chaix. efir yağından başqa məişətdə onun qurudulmuş çiçəklərindən döşəkağıların ətirlənməsi, yun paltarların güvədən qorunması üçün istifadə olunur. *Lavandula officinalis* Chaix. çiçəkləri və yağından təbiətdə müxtəlif xəstəliklərin müalicəsi üçün istifadə olunur.

*Lavandula officinalis* Chaix. həmçinin yaxşı balverən bitkidir. Arılar 1 ha lavanda plantasiyasından 1-1,5 sentnerə qədər yüksək aromatik və müalicəvi xassələrə malik yüksək keyfiyyətli bal toplayır.

## Material və metodika

*Lavandula officinalis* Chaix. toxum və qələmləri " Abşeron Subtropik Bitkiçilik Tərcübə Stansiyası"dan gətirilərək, tədqiqat işi kimi Dendrologiya Institutunun təcrübə sahəsində aparılmışdır.

*Lavandula officinalis* Chaix. işıqsevən bitkidir. Baxmayaraq ki, lavanda həmişəyaşıl bitkidir, lakin bitkinin həyatında qısa, nisbi dinclik dövrləri olur ki, bu zaman köhnə yarpaqlarını tökür. *Lavandula officinalis* Chaix. bitkisi də başqa bitkilər kimi azot, fosfor, kalium gübrələrinə qarşı tələbkardır. Gübrə vasitəsilə torpağın məhsuldarlığını artırmaq imkanı əldə edilir və həmçinin bitkilərin normal inkişafı üçün münasib mühit yaradan faydalı torpaq mikro-orqanizmlərinin fəaliyyəti təmin edilir [3].

Adi lavandanın (*Lavandula officinalis* Chaix.) inkişafı üzərində müxtəlif fenoloji müşahidələr aparılmış və bu müşahidələrin nəticələri aşagıdakı cədvəl 1 də öz əksini tapmışdır [5].

Cədvəl 1

Adi lavandanın (*Lavandula officinalis* Chaix.) fenoloji inkişaf fazaları

| Bitkinin adı | Vegetasiya müddəti | Qönçələmə | | Çiçəkləmə | | Toxumun yetişməsi | Vegetasiya müddətində bitkinin inkişaf fazaları | |
|---|---|---|---|---|---|---|---|---|
| | | başlanğıc | son | ilkin | kütləvi | | bitkinin boy atması | çətirin dia-metri |
| Adi lavanda (*Lavandula officinalis* Chaix) | 210 gün | 23.02 | 23. 03 | 5.04 | 15.04 | 14.08 | 110 sm | 57-59 sm |

*Lavandula officinalis* Chaix .efir yağının çox böyük əhəmiyyəti vardır. *Lavandula officinalis* Chaix. efir yağı böyük bakterisid əhəmiyyətə malikdir. *Lavandula officinalis* Chaix. yağı ətriyyat və kosmetika sənayesində geniş istifadə olunur. *Lavandula officinalis* Chaix. güclü, saçaqlı, kök sisteminə malikdir və eroziya ilə mübarizədə yaxşı vasitədir.

*Lavandula officinalis* Chaix . iqtisadi cəhətdən də çox səmərəli bitkidir. Belə ki, lavandanın becərilməsi üçün az xərc çəkilir və böyük gəlir əldə edilir. Başqa çoxillik bitkilərlə müqayisədə lavanda plantasiyalarının salınması üçün az vəsait sərf olunur. Ən əsası odur ki, bu bitki torpağa da az tələbkardır, hətta Abşeronun qumlu, çınqıllı torpaqlarında yüksək məhsul verir. *Lavandula officinalis* Chaix. normal yetişdiyi şəraitdə eyni əkin sahəsini 20-25 ilə qədər istifadə etmək olar.

Hər il budaqların təpə hissəsində çoxlu çiçək zoğları inkişaf edir. Bir kolda orta hesabla 300-1000-ə qədər çiçək zoğları inkişaf edə bilər. Çiçəklər ikicinslidir, budaqların ucunda sünbül çiçək

qrupunda yığılmışdır. Çiçəklər çarpaz tozlanır. Meyvə 4 ədəd balaca uzunsov-oval, hamar tünd fındıqcıqlardan ibarətdir. 1000 ədəd toxumun kütləsi 1 qramdır.

Yeni efir yağlı bitki kimi adi lavanda (*Lavandula officinalis* Chaix.) çiçəkləri il boyu kolun üzərin uzun müddət qalır.

## Nəticələr və onların müzakirəsi

Adi lavandanın (*Lavandula officinalis* Chaix.) introduksiyası məqsədilə aparılan tədqiqat işləri Abşeron Subtropik Bitkiçilik Tərcübə Stansiyası və AMEA Mərdəkan Dendrarisinin təcrübə sahəsində həyata keçirilmişdir. Aaparılan təcrübələrin nəticəsində məlum olmuşdur ki, saçaqlı kök sisteminə malik lavanda bitkisi torpaq eroziyası ilə mübarizədə çox yaxşı vasitədir. *Lavandula officinalis* Chaix. iqtisadi cəhətdən çox sərfəlidir, belə ki, onun becərilməsi üçün az maliyyə vəsaiti sərf etməklə çox böyük gəlir əldə etmək olar. Yay-payız fəslində mütəmadi çıçəkləməsinə görə, həmişəyaşıl kol bitkisi kimi park və bağların yaşıllaşdırılmasında geniş istifadə olunur.

*Lavandula officinalis* Chaix. inkişaf dinamikası sübut edir ki, lavanda torpağa qarşı tələbkar deyil, qabaqcıl aqrotexnikaya riayət etməklə hətta çınqıllı torpaqlarda da yüksək məhsul verə bilər. Abşeron şəraitində üzvi gübrələr verməklə lavandanın əkini üçün istifadə edilən torpağı 20-25 il ərzində istifadə etmək olar.

Ədəbiyyat məlumatlarına əsasən dünyanın bir çox ölkələrində lavanda plantasiyasından 4-5-ci il hektardan 50-60 sentnerə yaxın məhsul götürülür. *Lavandula officinalis* Chaix. yağı linalil-asetat (78%), linalol, hermanioldan ibarətdir. Təzə tər lavanda çiçəklərində 0,7-1,4%-ə qədər efir yağı olur. *Lavandula officinalis* Chaix. bəzi yeni sortlarında 2%-ə qədər efir yağı olur, yeni 100 kq təzə dərilmiş çiçəkdən 2 kq-a qədər efir yağı almaq olar [4].

Qiymətli aromatik bitki kimi tanınan adi lavanda (Lavandula officinalis Chaix) çox qədim zamanlardan insanlar tərəfindən məişətdə, tibbdə müxtəlif məqsədlərlə istifadə edilmişdir.
*Lavandula officinalis* Chaix. bitkisi həm çiçəkləri, həm otu, həm də toxumları olduqca faydalıdır. Bəzi bitkilərin istər iyi, istərsə dadı bəzən acı və xoşagəlməz olsa da lavanda həm ətrinə görə və həm də dadına görə fərqli bir bitkidir.

*Lavandula officinalis* Chaix. çox efirli bitki olduğundan şəhər bağlarında əkilməsi çox məqsədəuyğundur, çünki lavanda bitkisi havada müxtəlif virusları məhv edir və kütləvi yayılmasının qarşısını alır, qoxusuyla insana dinclik və rahatlıq verən lavanda bitkisinin çay və yağı olduqca faydalıdır.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, lavanda yaşıllaşdırmada, landşaft memarlığında istifadə etmək üçün çox perspektivli bitkidir.

## Ədəbiyyat


1. **Məmmədov T.S.** “Azərbaycan Dendroflorası”. III cild, ” Elm “, Bakı, 2010,.201 səh.
2. **Бейдеман И.Н.** Изучение фенологии растений / Полевая геоботаника. М.-Л.:АН СССР, 1960, т. 2, с. 333-366.
3. **Буюкли М.** Лаванда и ее культура в СССР. Кишинев, 1969, 10 стр.
4. **Васильченко И.Т.** Определитель всходов сорных растений. Ленинград, Издательства «Колос», 1979,с.181-182.
5. **Ксендз А.Т.** Лаванда настоящая. В кН.: «Эфироносы Крыма».Симферополь, 1965, 27 стр.

**Мустафаева З.Т.**

## БИОМОРФОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ, ИНТРОДУКЦИЯ И ИСПОЛЬЗОВАНИЕ В ЛАНДШАФТНОЙ АРХИТЕКТУРЕ ЛАВАНДЫ ОБЫКНОВЕННОЙ *(LAVANDULA OFFICINALIS* CHAIX.) В УСЛОВИЯХ АБШЕРОНА.

В статье дана информация изучения биоморфологических особенностей, интродукции, истории культивирования, развития фенологических фаз *Lavandula officinalis* Chaix. и использования её в ландшафтной архитектуре, как вечнозеленый кустарник.
**Ключевые слова**: *Lavanda ofisinalis*, эфирное масло, интродукция, ландшафт, ароматизация

**Mustafayeva Z.T.**

## BIOMORPHOLOGICAL FEATURE, INTRODUCTION AND USE IN LANDSCAPE ARCHITECTURE OF *LAVANDULA OFFICINALIS* CHAIX. IN APSHERON CONDITION

The article provides information on the study of biomorphological features, introduction, history of cultivation, development of the phenological phases of *Lavandula officinalis* Chaix. and use to regular flowering in landscape architecture as an evergreen shrub
**Keywords:** *Lavanda ofisinalis*, ether-oil, introduction, landscape, perfumery

Redaksiyaya daxil olma tarixi: 15.X1.2018